# ÖMƏR FAİQ NEMANZADƏ YARADICILIĞINDA TÜRK MİLLİ TƏƏSSÜBKEŞLİYİ

**Doç. Dr. Seadet VAHABOVA***

**Xülasə:** Məqalədə Sovet dönəmində amansızca qətlə yetrilən (təkcə cismi deyil, ruhu, düşüncəsi, amalı, mövqeyi, kimliyi) şəxsiyyətin milli təəsübkeşlik missiyası konkret faktlarla araşdırılır. Millət, milli şüur, müstəqil dövlət təfəkkürü və istiqlal təlimi siyasi yasaqlar arenasında (Car rusiyası, istər sovet dövrü) insan əqidəsinin, insan özgürlüyünün məhvini, manqurdlaşmış idrakı, (cismə yaşama hüququ verilməsinə rəğmən) Ömər Faiqin yaradıcılıq arenasında şərh edilir.

Nemanzadə ictimai ədalətə nail olmaq, həyatı yaxşılaşdırmaq üsulunu elm və təhsildə, hürr olan ədəbiyyatda, despotizmə və əcnəbi zülmə qarşı çıxmaqda, demokratiya və bərabərlik idealları uğrunda mübarizədə görür. Onun yaradıcılında Borçalı, Axalsix və Axalkələk qəzalarında olan müsəlman əhalinin taleyi daha dəqiqliklə ifadə edilir. Gürcüstanda yaşayan türklərin taleyi, əminamanlığı üçün o, burada çox işlər görmüşdür.Müsəlman bölgələrində qeyri-müsəlmanların, xüsusən idarə orqanlarına soxulmuş ermənilərin qərəzli fəaliyyətini ifşa edən məruzələri bu qəbildəndir. Ömər Faiqin qızıl əsgərlər (sovet əsgərləri) haqqında məlumatında onların ünsiyyət zamanı müsəlman kəndlərində əhaliyə işgəncə verən hegemon davranışları aktual problem kimi qabardılır. Müsəlmanların hər işdən uzaqlaşdırıldılması, onlara işgəncə edilməsini göstərən konkret faktlar, bu problemlərin aradan qaldırılması üçün onun apardığı mübarizə milli təəsübkeşlik üçün vacib arqumentlərdən sayılır.

**Açar Sözlər:** Türk təəssübkeşliyi, pedaqoq, demokratiya, azadlıq, bərabərlik

## ÖMER FAIK NUMANZADE'NİN YARATICILIĞINDA TÜRK MİLLÎ TAASSUP MİSYONU

**Öz:** Makalede, Sovyet döneminde acımasızca katledilen şahısın (sadece bedeni değil, ruhu, düşüncesi, eylemi, konumu, kimliği) milli taassup misyonu somut gerçeklerle araştırılmaktadır. Millet, milli bilinç, bağımsız devlet düşüncesi ve bağımsızlık eğitimi, siyasi yasaklar (Rusyası Çarlığı, Sovyet dönemi), insani kanaatlerin yok edilmesi, insan hürriyeti ve mankurt idrak (vücuda yaşama hakkı verilmesine rağmen) Ömar Faik'in yaratıcı arenasında anlatılır.

Numanzade, sosyal adaleti sağlamanın, yaşamı iyileştirmenin yolunu bilimde, eğitimde, özgür edebiyatta, despotizme ve yabancı baskıya karşı çıkmada, demokrasi ve eşitlik idealleri için mücadelede görüyor. Onun yaratıcılığında Borçalı, Akhalsikh ve Ahalkalek ilçelerindeki



ORCID ID : 0009-0007-9825-9609
DOI : 10.31126/akrajournal.1274442
Geliş tarihi : 31 Mart 2023 / Kabul tarihi: 16 Temmuz 2023
*Azerbaycan Millî İlimler Akademisi Nizami Gencevi Onuruna Edebiyat Enstitüsü.

Müslüman nüfusun kaderi daha net bir şekilde ifade edilmektedir. O, Gürcistan'da yaşayan Türklerin kaderi ve huzuru için çok şey yaptı. Ömer Faik eserlerinde gayrimüslimlerin Müslüman bölgelerdeki taraflı faaliyetlerini, özellikle de idari organlara sızan Ermenileri ortaya koyan haberler koymuştur. Numanzade'nin altın askerler (Sovyet askerleri) hakkındaki bilgisinde, onların iletişim sırasında Müslüman köylerindeki halka eziyet eden hegemonik davranışlarının aktüel bir sorun olarak altı çiziliyor. Türklerin tüm işlerden alındığını, işkencelere maruz kaldığını gösteren somut gerçekler ve bu sorunları ortadan kaldırmak için verdiği mücadele, milli taassubun önemli argümanları olarak değerlendiriliyor.

**Anahtar Kelimeler:** Türk taassup misyonu, öğretmen, demokrasi, özgürlük, eşitlik.

**PRO TURKIC MISSION IN THE CREATIVITY OF ÖMER FAIK NUMANZADE**

**Abstract:** In the article, pro turkic mission of the person who was brutally murdered (not only his body, but also his soul, thought, action, position, identity) during the Soviet period is investigated with concrete facts. Nation, national consciousness, the idea of independent statehood and independence education, political prohibitions (Tsarist Russia, Soviet period), the destruction of human convictions, human freedom and the understanding of the human being (although the body is given the right to live) are described in the creative arena of Ömar Faik.

Numanzade sees the way to achieve social justice and improve life in science, education, free literature, opposition to despotism and foreign oppression, struggle for the ideals of democracy and equality. The fate of the Muslim population of Borchali, Akhalsikh and Akhalkalek districts is more clearly expressed in his creativity. He did a lot for the fate and peace of the Turks which living in Georgia. In his works, Omer Faik has reported on the biased activities of non-Muslims in the Muslim regions, especially the Armenians who infiltrated the administrative organizations. Numanzade's information about the Golden Soldiers (Soviet soldiers) he highlights their hegemonic behaviour during communications, persecuting the population of Muslim villages, as an actual problem. The concrete facts showing that Turks were dismissed from all jobs and subjected to torture and the struggle to eliminate these problems are considered as important arguments of pro Turkism.

**Key Words:** pro Turkic mission, teacher, democracy, freedom, equality



## Giriş

Azərbaycan ədəbi-elmi və ictimai fikrinin görkəmli nümayəndəsi, xalqın milli dirçəlişi, milli şüurun oyanışı və formalaşmasında xüsusi mövqeyi olan Ömər Faiq Nemanzadə qüdrətli qələm sahibi, istedadlı publisist, ictimai xadim, pedaqoq olmaqla bu sahələrin hər birində zəngin irs yaratmışdır.

XIX. əsrin sonu, XX. əsrin əvvəlləri- Azərbaycan, Türkiyə, ümumilikdə Qafqazda, bu mürəkkəb və ziddiyyətli epoxanın təmsilçisinin milli - mənəvi tərəqqidə yeri, mübarizə ruhu – Alber Kamyunun dediyi kimi –"Yalnız azadlıq uğrunda ölməyin mənası var, çünki bu zaman insan inanır ki, o, tamamilə ölmür" –qırılmazlıq qanunu kimi idrakda yerini tapır. Ədibin əsərləri– demək olar ki, bütün yaradıcılığı dövrünün, ictimai mübarizəsinin bədii salnaməsidir. Ömər Faiq insan –cəmiyyət münasibətlərini birinci dərəcəli problem kimi görür, elmin deyil, elmsizliyin, dinin deyil, dinsizliyin, mövhumatın, ən başlıcası despotizmin məhv etdiyi insan toplumunu diqqət hədəfinə alır. İctimai ədalətə

nail olmaq, həyatı yaxşılaşdırmaq üsulunu isə elm və təhsildə, hürr olan ədəbiyyatda, dinsizliyə, despotizmə və əcnəbi zülmə qarşı çıxmaqda, demokratiya və bərabərlik idealları uğrunda mübarizədə görür. Nəticədə Ömər Faiqin fəaliyyətinin ideyaməfkurə səngəri, mənbə, fakt, tarix cəmində bir bütün olaraq türk qövmündə, mənəvi –tarixi vəzifədə milli qürur və azadlıq hissinin tərbiyəsi kimi məhkum və asılı Şərqə yönlənir, Azqurdan Türkiyə yol alaraq nəinki Azərbaycan, ümumən Qafqaz hüdudlarına milli bir konkretlik gətirir.

**1. Sovet Manqurtlaşdırma Siyasətində Türk Adına Yasaqlar**

Azərbaycan türklərinin milli oyanış hərəkatının əsas ideya müəlliflərindən biri olan Ömər Faiqin fəaliyyəti bütün dövrlərdə həm müasirlərinin, həm də elmi ictimaiyyətin (repressiya dövrü, qadağalar, məhdudluq çərçivəsinə baxmayaraq) diqqət mərkəzində olmuşdur. Dürüstlüyə qalırsa sovetlərə qədərki dövrdə onun haqqında söylənən fikirlər, qadağalara baxmayaraq edilən cəsarətli çıxışlar idi və bu etirazlar öz dövründə, zamanında məlum hökumətin dövlət qulluqçuları, ictimai xadimlər, istər ziyalılar tərəfindən mətbuatda açıq söylənilmişdir. (Qafqaz Mətbuat Komitəsinin şərq dilləri üzrə senzoru kimi çalışan Mirzə Şərif Mirzəyev, Əhməd Cavad və s.) Sovet rejiminin repressiya dəhşəti isə insan zehninə yanaşmanın, manqurtlaşdırma siyasətinin ən dəhşətli, ən ağır forması idi.



Müəyyən təhriflər, inkarlar (dövrün tələbinə uyğun olaraq) dəyişik təhlillər, həqiqətdən yan keçmə məcburiyyətdən doğan zərurət – məsələn, Abbas Zamanov "Əməl dostları" monoqrafiyasında Qafqazda və Azərbaycanda mətbuat səhifələrində zülmə və istibdada, cəhalət və mövhumata qarşı ölüm - dirim mübarizələri aparan inqilabçı- demokratik mühərrirlərin sırasında Ömər Faiqin fəxri yeri olduğunu vurğulayır. Ölüm tarixi 1937-ci ilə aid edilir, səbəb isə göstərilmir. Hâlbuki Ömər Faiq 1937-ci ildə Sovet hökuməti əleyhinə yaradılmış əksinqilabçı millətçi təşkilatın rəhbəri, bir türkçü kimi, Tiflisdə Odabaşyanın sanksiyası, Üçlüyün əmri ilə güllələnmişdir. O, 1958-ci il də Gürcüstan Ali Məhkəməsinin qərarı ilə bəraət alsa da, istinad olunan monoqrafiyada ( kitab 1979-cu ildə nəşr olunmuşdur.) bu fakta toxunulmur. Totalitar rejimin təbliğ etdiyi əsas məqam da budur. Digər araşdırmada, Sahib Rzayevin 1977- ci ilə aid olan namizədlik dissertasiyasında onun ürək xəstəliyindən vəfat etdiyi göstərilməsi gülünc olması ilə yanaşı,eyni zamanda ağrıdıcı bir faktdır. İstinadsa şovinist rejmin onun ailəsinə ünvanlandırdığı, qızı Kamilə Nemanzadədə saxlanılan PE 148158 № -li ölüm haqqında şəhadətnamədir. Burada Ömər Faiq Ne-

manzadənin 1941-ci ildə həbsxanada ürək xəstəliyindən vəfat etdiyi qeyd olunmuşdur. Tünd boyalarla beyinləri qaralayan rejimin təsirinə düşməsinə görə heç bir tədqiqatçını qınamaq olmaz. Tədqiqatçı fakta yönəlir və bu faktsa doğruluğu məchul olan, saxta bir sənəddir. Bu bir təlim idi... Humanizm, dürüstlük cənnəti– adı və vədi arxasında beyinləri donduran, əsl həqiqəti isə cildini dəyişmiş, təzə üzlük taxmış şəkildə, əqidəsinə əzab, cisminə güllələr yağdıran Sovetlərin üzdə bəraəti – türk casusu kimi siyasi təqdimdə dolanan sənətkara və ya tədqiqatçısına “proletar diktaturası”nda hakimiyyət buxovu ideologiyası idi.

**2. Beyinləri Donduran “Pantürkçü” İmzası**

Ömər Faiqin hələ İstanbulda, Darüşşəfəq məktəbində təhsil alarkən “müdir və məmurların keyfi, hərəkətləri artdıqca müdafiə və mübarizə qüvvəsi artan”, məktəb idarəsi, müdir və məmurlar əleyhinə, sonra isə məktəb və nəzarət heyəti qərarlarına, dərs proqramlarına qarşı şiddətli yazıları hadisələrin insan psixologiyasında özünüdərk olaraq çox maraqlı əsaslarını açır. Düşüncə azadlığının, qavramanın faciəsi ona təqdim olunan susma qadağasında - “otuz zopa və bir ay həbs cəzası” olaraq həbsxana həyatından iyrənən, diksinsən, amma mübarizəsindən dönməyən özgür ruh mövqeyinə yönlənir. Həbsxana zillətinin 1907, 1918, 1919 –cu illərdə yenidən təkrarlanması onun daha böyük amal, ədalətsizliyin, qanunsuzluğun, ictimai bərabərsizliyin ləğvi üçün hökumət idarə üsullarının ləğvinə yönləndiyi üçün idi. Bu, xalqın bugünkü günü, sabahı, gələcəyi uğrunda mənəvi cavabdehlik idi və Ömər Faiq belə bir vəzifəni, könüllü olaraq əməli icrasını daxilən qəbullanmışdı. Konseptual sxemdə isə ışıqlı sabah naminə ləğvində iştirak etdiyi ədalətsiz hökumətdən sonra quruculuğunda ölüm dirim savaşı apardığı “ədalətli” hökumətdə Ömər Faiq 17557 nömrəli məhbus olaraq eyni qədərə məhkum idi. “Mütərəqqi sosialist cəmiyyətində” onun haqında xəbərçilik arayışlarında daha çox qaralanan, vurğulanan Türkiyədə, İstanbulda oxumağa göndərilməsi, Azərbaycan sovetləşənə qədər qatı millətçi və pantürkist olmasıdır. Türk məhfumunun böyüklüyü və qeyri adiliyi sovet quruculuğunda sanki partlamağa hazır olan bir dinamiti xatırladır. Bu kəlmənin istər kimlik, istərsə də məkan anlayışında səslənməsini zərərsizləşdirmək tam bir ideoloji faktdır. Gürcüstan Dövlət Təhlükəsizlik Komitəsinin arxivində Ömər Faiqə aid 17557 nömrəli 213 səhifə qalınlığında olan istintaq işi saxlanılır, üstündə isə “Ömər Faiq Nemanzadə və başqalarının işi (cəmi on nəfər)” (Qurbanov, 1992:180) göstərilir. Ona ünvanlanan iddia isə daha gü-

lüncdür: O, Axalsixdə sovet hakimiyyətinə qarşı əksinqilabi təşkilat yaratmış, qurduğu sosialist cəmiyyətini qoca, zəif halında on nəfərin gücü ilə dağıtmaq istəmişdir. Bu paradiqma hər halda onun dərinləşmiş ideyasından, islahatlarından qaynaqlanır, əvvəlki fəaliyyətinin təkrarlanacağından qorxulduğu, "zamanın yenidən dolanıb gəlməməsi" üçün ehtiyat tədbiri görülürdü. Belə ki, 1918-ci ilin may ayının sonlarında Zaqafqaziyanın üç böyük xalqları hərəsi suveren respublika yaradaraq daxili məsələlərini öz istədiyi şəkildə həll etməyə çalışırdı. Əslində isə bu görünən tərəfi idi. "Vəziyyətin bu cür olduğunu və işlərin pis qurtaracağını duyan xalqlar uzaqgörənliklə kənarda özlərinə sahib və güclü müdafiəçi axtarmağa başladılar. Bütün bu kiçik xalqlar hər biri ayrı-ayrılıqda hansı bir güclü qəhrəmanınsa ağuşuna atılmağa hazır idi" (Narimanov,1989: 194). Bu dönəmdə Axaliskdə də siyasi vəziyyət qarışıq idi. Axalsixdə yerli hökumət yıxılmış hakimiyyət xalqın əlinə keçsə də, uzun müddət davam edə bilməmişdi. "Bəsirət" qəzeti 1919-cu il tarixli sayında "martın 7-də saat 1-də Axalsix şəhəri Gürcüstan qoşunları tərəfindən işğal edildiyini" ("Bəsirət",1919:may 15) yazırdı. Yerli əhalinin vəziyyəti daha da ağırlaşaraq dözülməz vəziyyətə çatmışdı. "Quldur Andronik Türkiyə və Qafqaziya ermənilərinin mürəkkəb dəstələrinə köylü ermənilər ilə bərabər müsəlman kəndlərinə hücum etmək əmrini verir. İşarəyə görə bütün ermənilər qalxıb yaxın müsəlman kəndlərinin üzərinə düşərək vəhşiyanə bir surətdə müsəlmanları biçməyə başlayırlar. Bunlar qadınların döşlərini kəsib səbilərin ağzına qoyurlar." Bu xəbər Zəngəzur qəza qaymakanı Məlik Namazəliyevin 1918-ci ilin dekabrında Azərbaycan Xalq Cümhuriyətinin milli şurasına kömək üçün vurulan teleqramında həyəcanla əks olunur ("Azərbaycan", 1918: qanuni-əvvəl15). "Millət ümumi fəlakət qarşısında idi. Xalqı bu ümumi fəlakətdən qurtarmaq üçün qabaqcıl ziyalılar qonşu xalqlarınkına nisbətən sayca az olsalar da, mübarizə meydanında idilər. Tarix onların qarşısına çox çətin bir vətəndaşlıq və qeyrət vəzifəsi qoymuşdu. Bu işdə Ömər Faiqin vəziyyəti daha ağır, müsibəti qat-qat artıq idi. Çünki o, azərbaycanlıların ümumi mübarizə və özünü müdafiə axınından məsafə etibarilə kənarda idi, özü də mübarizə meydanında demək olar ki, tək idi" (Qurbanov, 1992:118). Axalisk Milli Komitəsi xüsusən Ömər Faiqin fəaliyyətini məhdudlaşdırırdı. "Gürcü hökumətinin ən ziyadə qorxduğu Ömər Faiq əfəndidir ki, köylü camaatının yanında onun böyük nüfuzu vardır" ("Azərbaycan",1919: nisan 23). O isə bütün çətinliklərə baxmayaraq doğma xalqının hüquqlarının tapdalanmamasına çalışırdı.

### 3. Yaradıcıcılığında Axalsix və Axalkələk Əyalətlərinə Muxtariyyət Məsələsi

Gürcüstan inqilab Komitəsinin fəal üzvlərindən biri olan Ömər Faiq bir qrup gürcü fəalları ilə eyni cəbhədə yer almışdır. Kazım Qarabəkirin xatirələrindən onun türk Milli Mücadiləsini dəstəkləmədiyi qeyd olunsa da (Fikrimizcə bu dövrün xülasəsində qurtuluş üçün ziddiyətli siyasi yanaşma müxtəlif mövqeydən qiymətləndirilə bilər. Məsələn, Ömər Faiq Ərdəhan, Axalkələk, Axalsix əyalətlərinin Türkiyəyə verilməməsinə o zaman susa bilərdi ki, onun, bu yerlərin Gürcüstan respublikasının daxilində qalmaqla muxtariyyət verilməsi tələbi yerinə yetrilsin. "Hökumətdən onu da xahiş etmişdir ki, gürcüstanın tərkibində qalmaqla Axalsix və Axalkələk əyalətlərinə muxtariyyət verilsin ("Quruziya", 1919: fevral 4). Bu fikir publisistin "Azərbaycan" qəzetinin 9 mart 1919-cu ilin 109-cu nömrəsində dərc olunan "Ömər Faiq əfəndinin Ruxadzenin teleqramına cavabı" yazısındakı siyasi mövqe pərdələnmiş halda daha dəqiq ip ucu verir: " ... general Maqayevin rəsmi məktubuna baxmayaraq Ruxadze məni üç nəfər yoldaşımla həbs edib Tiflisə göndərdi... Ruxadzenin və onun əli altında olan qulluqçularının xüdsəranə hərəkəti camaatı həyəcana saldı. Camaat səbr edə bilməyib Ruxadzenin bu hərəkətinə laqeyd baxmadığından bizim həbsdən azad edilməyimizi tələb etməyə başladı... Ruxadze öz axırıncı məktubunda yazır ki,bizim əlimizə böylə gizlin sənəd keçmişdir. Sənəd budur: "Əfəndi qardaşım! Sizə xəbər veririk ki, Qərbi Zaqafqaziya mühavirləri Karsdadırlar. Onlara mehmannəvazlıq göstərin. Onları öz ixtiyarınıza alın" və qeyri... "Axalsix hadisələri" məhəlli inzibati idarəsinin təxribedici üsulunun nəticəsidir... Bazzat özümün Gürcüstan demokratik cümhuriyyətində Axalsix və Axalkələk uyezdləri üçün milli muxtariyyət almaqdan başqa özgə bir qəsdim olmuyubdur" (Nemanzadə,1992:271-272) sonda Gürcüstandan Menşeviklər getmiş, bolşeviklər gəlmiş, Ömər Faiq isə "Türk milliyyətçisi və Türk ajanı" olma ittihamından qurtara bilməmişdir. Bu ittihamlar, məxvi məktubda olan müraciətdə dırnaq arası inkar işarələri əslində onun türk Milli Mücadiləsini dəstəklədiyinin bir daha sübutudur. Bu mövzuda Nağı bəy Şeyxzamanlının "Xatirələr"i konkret tarixi fakt olaraq dəqiq fikir üçün zəmin yaradır. Azərbaycanın istiqlaliyyət illərində cərəyan edən hadisələr fonunda qurulan xatirələr müəllifin Ömər Faiqlə birgə Osmanlı dövlətinin Baş naziri, Tələt Paşa ilə görüşü Türkiyənin yardımını təmin etmək üçün önəmli məlumatlarla zəngindir. Görüşdə Nağı bəy Şeyxzamanlının "Əziz paşalarım, Azərbaycan xalqı 100 ildir ki, rus hakimiyyətinin zülmü altında inləməkdə idi. Qafqaz Rusiya tərəfindən işğal olunarkən

səkkiz xanlığın xalqı olan azərilər, yəni dini bir, dili bir, adət və ənnələri bir olan millətimiz- türk milləti rus hakimiyyətinə qarşı gecəli-gündüzlü hər fədakarlığa qatlaşaraq çalışdılar. Bu çalışmaların rus çarlığının devrilməsində böyük rolu oldu. Qafqazda başsız qalan rus ordusu pərişan halda idi. Millətimizin sillahlı qüvvələrinin hücumuna, təziqinə dözə bilmədilər.Azərbaycanın hər tərəfində xalqı idarə edə biləcək milli komutələr quruldu. Artıq anarxiyadan əsər-əlamət yoxdur. Ancaq bu gün üçün yaxşı olan vəziyyət sabah təhlükəli olacaq... Azərbaycan xalqı sizdən yardım gözləyir. Qardaş əlinizi uzadaraq bizə yardım edin, müstəqil olaq. Bizi çəkib özünüzə qatmaq istəsəniz, buna razı olmayacağıq... Bizə böyük hərbi qüvvə göndərməyin. Hərbi mütəxəssiz və çavuş kadrlar göndərin"(Şeyxzamanlı, 2016: 105). Bu görüşdə Ömər Faiqin bir dövlət olaraq Azərbaycanın müstəqiliyi haqqında mövqeyi, müraciəti, onun müstəqil yaşaya biləcəyinə xüsusi inam və ehtiramı qeyd olunur. Bununla yanaşı qeyd olunan məlumat Ahışka qəzası ilə bağlı onun fikir və istəkləri baxımında qiymətli bir mənbədir : "Paşam, mən qəzetçiyəm. Azərbaycan mətbuatında çox çalışmışam. Azərbaycanlılar türklüklərini qəti şəkildə dərk etmiş bir millətdir; istiqlala layiqdirlər. Güclü ədəbiyyata malikdirlər. Ancaq xahişim budur ki, bizim qəzamız olan Ahıska düz Türkiyənin sərhəddindədir, oranın sizə ilhaq olunmasını istəyirəm" (Şeyxzamanlı, 2016:107). Nəticə isə, Tələt Paşanın "əmin olun, paşa həzrətləri bu arzunuzu yerinə yetirər. Sabah təşkilatı qurmağa başlayacağıq" -yekun qənaəti olmuşdur. "1918-ci il iyunun 4-də Mesxetiyanı tutmuş türk ordusu oranı tərk edən Gürcüstan menşevik hökuməti ilə müqaviləyə əsasən Axalkələk əyaləti bütünlüklə və Axalsix əyalətinin bir hissəsi Türkiyənin ixtiyarına keçmişdir... Milli komitə qayda –qanunun pozulmasının və anarxiyanın qarşısını alması üçün bu yerlərin idarə olunmasını müvəqqəti olaraq öz öhdəsinə götürmüşdü" ( Qurbanov, 1992:202-203).

1919-cu il yanvar ayının 28-də "Qruziya" qəzeti bildirirdi: "Axalsixdə hökumətin fövqəladə müvəkkili Leo Ruxadze daxili işlər naziri N.Ramişvilinin adına belə bir teleqram göndərmişdir: təxminən iki həftə bundan əvvəl bütün uyezddə türk agentləri geniş fəaliyyətə başlamış, üsyan üçün bütün tədbirlərə əl atmışdırlar". Həmin vaxtlarda Ömər Faiqin ərazidə yaşayan əhalinin əksəriyyətinin Qafqaz türklərindən ibarət olduğu üçün muxtariyyət məsələsini qaldırması, bütün fəaliyyətini xalqın müdafiəsinə, milli hüquqların qorunmasına yönləndirməsi gürcü cümhuriyyəti üçün "düşmən siması" kimi təqdimi qüvvətləndirirdi. Əsas ittihamlara qarşı Ömər Faiq cavabı isə bu idi: "Bu axır

vaxt möhtərəm gürcü camaatı məni öz milli və Gürcüstan istiqlaliyyətinin düşməni hesab etməklə bərabər Axalsixdə guya mənim tərəfimdən hazırlanan üsyanı mənə isnad ediyorlar. Gürcü camaatı Ruxadzenin hökumət namına göndərdiyi teleqramı oxuyandan sonra bu fikrə gəlmişdir. Buna cavab olaraq deyirəm ki, hərgah Axalsix uyezdində narahatlıqdırsa və əhali arasında həyəcan davam edirsə, əvvəlcə bunun səbəbi Ruxadze cənablarının özüdür" ("Azərbaycan", 1919:mart 9)

Əslində qeydlərindən, müraciətlərindən görünür ki, Ömər Faiqin ruhunda demokratik bir ziyalılıq vardır və o, bütün fəaliyyəti ərzində əzilən və istismar olunan xalqın, ümumilikdə insan azadlığı uğrunda mübarizə aparır,eyni zamandabütün xalqların milli istiqlalını istəyirdi. Lakin "Azərbaycan" qəzetinin 9 mart 1919-cu il sayında o, "inqilabın birinci günlərində mən kəndlilərin hüquqlarını müdafiə edib torpaq islahatı tələb etdiyim zaman yerli bəylər və köhnə məmurlar "dişlərini mənə itiləmişlərdi" sözləri ona qarşı olan aqressiv münasibəti, irəli sürülən ittihamları əks etdirirdi. Gürcü və ermənilərin Axaliskdə müsəlman əhalisinə rəva gördükləri zülm dözülməz bir vəziyyətdə idi. Ömər Faiq 21 aprel 1919-cu il tarixində nəşr olunan "Azərbaycan" qəzetində o günləri belə qeyd edir: "Budur sosialist Ramişvilli hökumətinin və müsəlman dostu gürcülərin müsəlman kəndlərinin başına gətirdiyi bəla və fəlakət! Budur sosialist maskası altında oynanılan ən mənfur milliyyətpərəstlik! Budur Nikolay Kazaklarından daha vəhşiyanə davranan demokratik gürcü əsgəri!" Onun bu vəziyyətdən çıxış yolu axtarması Tiflis hökumətini rahatsız etməyə bilməzdi. Ömər Faiq 1919-cu ilin yanvar ayında Tiflisdə həbs edilərək Aqara və Azqurdakı mal varlığına əl qoyulur, evləri, bağçası yandırılaraq talan edilir. Xüsusi tapşırıqlı əsgərlər tərəfindən ailəsinə divan tutulmağa cəhd edilsə də, tərəfdarları onun ailəsini gizlətməyə müvəffəq olurlar. "Zarya" qəzetinin 30 yanvar 1919-cu il tarixli sayında "ictimai xadim.., ilk müsəlman inqilabçılarından biri Ömər Faiqin başına gətirilən bu müsibət cəmiyyətin bütün təbəqəsini həyəcana salmışdır", xəbərinə məğrur, mübariz vətənpərvərin cavabı bu idi: "Təki hüquqi-milliyəmiz talan edilməsin, elə xüsusi, xırda sərvətlərin məhvinin əhəmiyyəti yoxdur" ("Azərbaycan", 1919:aprel 18).



### 4. Ömər Faiq Təqdimində Azlıqda Qalan Xalqın (ümumilikdə insanın) Milli Mənafeyini Qoruması

1921-ci ildə Borçalı, Quriya, Acarıstan və başqa kəndləri ayağa qaldıraraq inqilabi vəziyyəti tamlaşdırdı. 1921-ci il fevral ayının 16-da Şulaver şəhərində Gürcüstan inqilab komitəsi yaradılır. Tərkibi on nəfər

tanınmış insanlardan ibarət olan komitədə Ömər Faiq də yer alırdı. Həmin gün Gürcüstan Sovet Sosialist Respublikası elan olunaraq hakimiyyətin zəhmətkeşlərə – fəhlə və kəndlilərə məxsus olacağını bəyan edir. Gürcüstan çoxmillətli ölkə olduğu üçün bərabər cəmiyyət quruculuğu üçün İnqilab Komitəsi 1921-ci il avqustun 1-də "Gürcüstan Sovet Sosialist Respublikasının müsəlman əhalisi üzrə Şura" təsis etmək haqqında 63 nömrəli dekret verir. 6 maddədən ibarət olan dekretdə Gürcüstan müsəlmanlarının həyatının tarixi, sosial –məişət qayğı və xüsusiyyətləri diqqətə alınırdı. "Müsəlman işləri şurası"na mərkəzi aparatda işləmək üçün 10, yerlərdə isə 8 stat ayrılaraq sədri Ömər Faiq, katibi isə Tiflis jurnalistlərindən Hüseyn Minasazov təyin edilmişdir. Bu illərdə artıq o, müsəlman rayonlarının müvəkkili idi (Qasımov, 1985:127).. 1921-ci ilin iyul-avqust aylarında Ömər Faiq şuranın 4 nəfər üzvü ilə müsəlmanlar yaşadığı rayonlarda olaraq onların istək və arzuları, qayğıları ilə maraqlanır, problemlərini həll edir, eyni zamanda yeni quruluşun mütərəqqi qanunlarını onlara aydınlaşdırırdı. Bu ərazilərdə ciddi problemlərlə bağlı məsələləri dövlət müzakirəsinə çıxarmaq bacarığında mübariz publisistin inqilab prinsiplərinə əsasən vətəndaşların qanuni hüquqlarının tapdalanmamasına istiqamətlənirdi. Onu fəaliyyəti boyu ən çox məşğul edən məsələlərdən biri isə, müsəlmanlar yaşayan yerlərdə milli məsələyə qeyriciddi münasibət göstərilməsi, verilən sözlərin sadəcəforma olaraq qalması idi. 1921-ci il iyulun 24-də Maxaradzenin sədrliyi ilə keçirilən plenumda "Gürcüstan İnqilab Komitəsinin üzvü Ömər Faiq yoldaşın Borçalı əyalətindəki vəziyyət haqqında məruzəsi" diqqəti cəlb edir: "Mənim topladığım bütün faktlar belə bir qənaət hasil edir ki, əhalisinin 80-85 faizi müsəlman olan Borçalı əyalətində müsəlmanlarla heç kəs hesablaşmır və hesablaşmaqda istəmir. Qəzanın ən vacib təşkilatlarında və müəssisələrində müsəlman işçisi olmadan keçinmək əsas prinsip kimi götürülmüşdür. Qəza İnqilab Komitəsinin tərkibində bir nəfər də müsəlman yoxdur. Torpaq şöbəsi istisna olmaqla bütün şöbələrdə də vəziyyət belədir. Torpaq şöbəsinə rəhbərlik isə köhnə Nikolay dövrü məmurları xatırladan bir müsəlmana həvalə olunmuşdur. Voronsov, Yekaterinenfeld, Zalqa rayonlarında vəziyyət elədir ki, bütün inqilab komitələrinin üzvləri, milis rəisi və az-çox məsul işçilər ancaq qeyri-müsəlmanlardan ibarətdir. Şulaver istisna olmaqla Aşağı Saral zonasında yaşayan əhalinin böyük əksəriyyətini müsəlmanlar təşkil edir. Buna baxmayaraq nə İnqilab Komitəsində, nə də inzibati işçilər arasında əhalinin bu əksəriyyətinin bir nəfərdə nümayəndəsi yoxdur. Bütün Borçalı qəzası iki birbirinə zidd cəbhəyə bölünmüşdür: bir tərəfdə azlıq təşkil edən

almanların, ermənilərin, aysorilərin, malakanların, gürcülərin, yunanların müxtəlif ölçülü nümayəndələrindən ibarət başçıları durur, digər tərəfdə əhalinin əksəriyyətini təşkil edən və həmin başçılar tərəfindən idarə olunan çoxminli müsəlmanlar" (Nemanzadə,1992:346). O, "Millətlərarası münasibətlərin hələ tam sahmana salınmadığını və sadəcə təsadüfən, qeyri-şüuri şəkildə edilmiş hər bir səhv hərəkət tərəflərin birinin digər tərəfin zərərinə millətçilik məqsədi ilə qəsdən edilmiş hadisə kimi qələmə verilə biləcəyi indiki halda hakimiyyətin azlıq təşkil edən hər hansı bir millət nümayəndələri əlində cəmləşməsini çoxluq təşkil edən millətin hüquqlarının kobud surətdə pozulması aktına bərabər" tuturdu. 1921-ci il iyunun 11-də Maxaradzenin adına yolladığı məktubdakı qeyd olunan bu fikirlər bir daha təsdiq edir ki, o, təkcə xalqının yox, hökumət tərkibində hər hansı azlıqda qalan xalqın (ümumilikdə insanın) milli mənafeyini qorumağı özünə borc bilmişdir.

### 5. Sovet əsgəri, "Qızıl Esgər" Adlandırılan Mifin İç Üzünün İfşası

"Demokratiya və azadlıq ugrunda" mübarizə fəaliyyətinin əsas amalı olan Ömər Faiq, bu dövrdə də durmadan xalqın maariflənməsinə, inzibati işlərdən – hərbi hissələrin vəziyyəti, torpaq və s. kimi həlli vacib məsələlərə diqqət yetirərək quruculuğunun mütərəqqiliyinə güvənərək sovet dövlətinə, sosializm quruculuğuna dürüstlüklə xidmət etmişdir. Gürcüstanda yaşayan türklərin taleyi, əmin-amanlığı üçün o, burada çox işlər görmüş, müsəlman bölgələrində qeyri-müsəlmanların, xüsusən idarə orqanlarına soxulmuş ermənilərin qərəzli fəaliyyətini ifşa edən məruzələri ilə geniş əkssəda oyatmışıdır. Yenə onun Gürcüstan inqilab komitəsinin sədri Maxaradzenin sədrliyi ilə keçirilən plenumda komitə sədrinə Borçalı qəzasının rayonlarında olan "Ümumi vəziyyət", İnzibati quruculuq işləri", "Torpaq məsələsi", "Ərzaq məsələsi", "Qızıl əsgərlər", "Yaylaqlarda vəziyyət" başlıqlı məruzələri onun özünün şahidi olduğu konkret faktlar üzərində cəmlənir. Ömər Faiqin qızıl əsgərlər haqqında məlumatında onların ünsiyyət zamanımüsəlman kəndlərində əhaliyə işgəncə verən hegemon davranışları aktual problem kimi qabardılır: "Axalsix və Axalkələk qəzaları haqqında verdiyim məruzələrdə olduğu kimi, Borçalı qəzasında da müsəlman kəndlərində yerləşmiş qızıl əsgərlərin hərəkətləri üzərindən sükutla keçə bilmərəm. Burada qızıl əsgərlər özlərini düşmən ölkəsindəki kimi aparırlar, kəndlilərin hamısı yekdil şəkildə bildirirlər ki, qızıl əsgərlər son vaxtlardan bəri onlara qarşı açıq-aşkar kinli münasibətlər göstərirlər... Yuxarı Orzuman kəndində qızıl əsgər bir kəndlini ona ikinci dəfə süd

gətirmək tələbini yerinə yetirə bilmədiyinə görə güllələmişdir... Müsəlmanların müqəddəs hesab etdikləri ramazan ayında Cücəkəndində, İlməzlidə və başqa kəndlərdə əsgərlər minbərdəki mollaları daşa basıb camaatı məscidə çağırmağa imkan verməmişlər. 5-6 nəfərdən ibarət ailəsi olan bir müsəlman kəndlisinin yeganə daxmasında uşaqlar və qadınlarla bir yerdə yaşayan (mən özüm şəxsən İlməzli kəndində bunu gözümlə görmüşəm) qızıl əsgər qadınlara sataşmaqdan və biabırçılıq törətməkdən çəkinmir" (Nemanzadə,1992: 354). Törədilən vəhşi münasibətlər beyinlərə mifik qurtuluş cəngavərləri timsalında həkk olunan, azadlıq, bərabərlik, humanizm tərəfdarı qızıl əsgərlər kimi tanıdılan, XX əsrin 90-cı illərində "Qızıl Ordu" qatillərinin ilk rüşeyimləri idi ki, bü cücərtilərin iç üzünü Omər Faiq elə 20-ci əsrin əvvəllərindən (1921), bünövrədən ifşa edirdi. Onların qatil davranışları Ermənistanla qarışıq olan yaylaq yerlərində müsəlmanlara daha ağır başa gəlirdi. Belə ki, "erməni banditlərinin yataqlara hücumları çoxalmış", kütləvi halda malqaranın, hətta adamların oğurlanması daha ağır nəticələr verir, zərbəni iki qat artırırdı. Ömər Faiq bu özbaşınalığı aradan qaldırmaq üçün ciddi tədbirlərin görülməsini tələb edir, məruzəsində çıxış yolu üçün vacib tələblər irəli sürürdü: "...İnzibati orqanlarda firqəçi və bitərəf müsəlman işçilərinə mümkün qədər çoxlu yer verilsin... Respublikanın müsəlman rayonlarında xalq maarif və mədəni-maarif müəssisələrinə rəhbərlik işi üçün Gürcüstan maarif komissarlığının nəzdində müsəlmanlar arasında maarif şöbəsi yaradılsın...Torpaq sahəsindəki nizamsızlığa son qoymaq və həyəcanlanmış əhali arasında sakitlik yaratmaq üçün sovet quruluşunun ilk mərhələsində torpaq islahatının gedişini sürətləndirmək lazımdır, sürətləndirmə işi başlanana qədər kim olursa-olsun müsəlmanlardan alıb başqasına torpaq vermək işinə maneçilik göstərilsin...Müsəlman kəndlərinə bölünmüş qızıl əsgərlərin yerli əhalinin dini və məişətindəki fərdi xüsusiyyətlərə dözümlü münasibət göstərilməsi mənasında onlara ordu qərargahları vasitəsi ilə təsir etmək və elə bir ümumi qayda yaratmaq lazımdır ki,əsgərlər müsəlmanların evində ailə şəraitində, qadın və uşaqlarla bir yerdə yox, ayrıca binalarda yerləşdirilsinlər. Əgər bu maddə üzrə təcili və qətiyyətli tədbir görülməsə, kəndlilərin kütləvi şəkildə Türkiyəyə köçmək ehtimalı yarana bilər"(Nemanzadə,1992: 352-353). Göstərilən vəhşi münasibət, problemlər Axalsix və Axalkələk qəzalarında olan müsəlman əhalinin taleyini, yaşam tərzini daha dəqiqliklə ifadə edir. Sadalanan müxtəlif xoşagəlməz halları aradan qaldırmaq üçün onun göstərdiyi daha qəti olan tədbirlər lazımlı, müsəlmanların hər işdən uzaqlaşdırıldığını, onlara işgəncə edilməsini

göstərən bir fakt olaraq milli təəsübkeşlik üçün vacib arqumentlərdən sayılmalıdır:

1. Axalsix qəza inqilab komitəsinin sədri vəzifəsinə təcrübəli və etibarlı kommunist təyin edilsin;

2. Heç olmazsa, iki-üç nəfər müsəlman qəza inqilab komitəsinə üzv, inqilab komitəsi yanındakı müxtəlif kollegiyaların hərəsinə bir nəfər müsəlman seçilsin;

3. Qəza milis rəisinin köməkçisi və müsəlman kəndlərində bütün milis nəfərləri müsəlmanlardan təyin edilsin;

4. Erməni qızıl əsgərlər və milis nəfərləri heç olmazsa, müvəqqəti müsəlman kəndlərindən çıxarılsın;

5. Qızıl əsgərlərin qanunsuz hərəkətlərinə ordu qərargahı vasitəsi ilə son qoyulsun" (Nemanzadə, 1992:368) və s. və s. kimi ciddi tələblər onun inanaraq yol aldığı, tam əksini gördüyü dövlətin saxta sülhsevərlik, humanizm, beynəlmiləlçilik pafosunu yerlə bir edirdi. Nəticədə onu hakimiyyətdən uzaqlaşdırmaq çıxış yolu, məhvə məhkumluğu isə insanın, millət milli "mən"ini, özünüdərki yox etmək islahatının əsas parçasıdır.

**Nəticə**



Ömər Faiqin ciddi tələbləri rəğbətlə qarşılanmamış və 1922-ci ildə hökumətdən uzaqlaşdırılmışdır. Ad isə başqa idi: "o, yaş və xəstəliyinə görə dövlət işindən uzaqlaşır." Təqiblərsə yenə davam edirdi. Yeni platformanın, "milli problemlər çərçivəsində fəzilətləri bol olan sosialistlərin" ittihamı ona 1925-ci il dekabrın 9 də Azərbaycan Fövqəladə Komissiyasının 341 №-li həbsetmə və axtarışaparma orderi ilə başlayaraq həbsə məhkum etdi. Ömər Faiq daha çox türk casusu kimi günahlandırılmış, lakin istintaqın gedişində heç bir sübut olmadığı üçün həmin ayın 14-də araşdırma və təhqiqat davam etmək şərti ilə həbsdən azad edilmişdir (Qasımov, 1985:128). 1933-cü il, 20 mart tarixində, 746 №-li orderlə, ikinci dəfə, eyni ittihamla tuperklyoz xəstəliyinə mübtəla olmuş Ömər Faiq təkrar həbs edilir. Dindirilmə milliyyətcə erməni olan Tevosyan tərəfindən aparılır. Mayın 17-də isə o, ittiham sübutsuzluğu ilə həbsdən azad edilir. "Bu qərar may ayının 17-də verilsə də onu həbsdən azad etmirlər. May ayının 27-də Ömər Faiqin ömür-gün yoldaşı Abidə xanım (Ömər Faiqin bir oğlan-Kamil, üç qız – Kamilə, Ədilə və Bəxtli adlı dörd övlad payı olmuşdur) M.C.Bağırova ərizə ilə müraciət edərək ərinin buraxılmasını xahis edir. Bu ərizədən sonra may ayının 28-də Ömər Faiq Nemanzadə azad edilir" (Qasımov, 1985:128). Sovet hökuməti əleyhinə yaradılmış əksinqilabi millətçi təşkilatın rəhbəri

kimi, Ömər Faiq 1937-ci ilin 16 iyulunda Axalsix rayon prokuroru Odabaşyanın sanksiyası ilə yenidən həbs olunmuş, istintaq nəticələri isə Gürcüstan SSR Daxili İşlər Komissarlığının nəzdindəki üçlüyün sərəncamına verilmişdir. Yenidən heç bir məhkəmə olmadan oktyabr ayının 19-da isə qocaman publisist Üçlüyün əmri ilə güllələnmişdir. Ömər Faiq 1958-ci il aprelin 10-da Gürcüstan Ali Məhkəməsinin qərarı ilə bəraət almışdır.

**ƏDƏBİYYAT**


"Azərbaycan" qəzeti, 15 qanuni-əvvəl 1918.

"Azərbaycan" qəzeti 23 nisan 1919.

"Azərbaycan" qəzeti 9 mart 1919.

"Azərbaycan" qəzeti, 18 aprel 1919.

"Bəsirət" qəzeti, 15 may 1919.

Qasımov, Cəlal (1985), Məhbus tərcümeyi-halı. Bakı: Mütərcim.

Qurbanov, Şamil (1992), Ömər Faiq Nemanzadə. Bakı: Gənclik.

"Quruziya" qəzeti, 4 fevral 1919.

Şeyxzamanlı, Nağı bəy (2016), Xatirələr. ("XAN" Xatirə Ədəbiyyatı silsiləsindən), Bakı: Xan.

Nemanzadə, Ömər Faiq (1992), Seçilmiş əsərləri. Bakı: Yazıçı.

Narimanov, Nariman (1989), İzbrannıe soç. II t, Baku.